# ZƏFƏRİMİZİN ŞƏHİD ARƏSTƏSİ...



**Vətən Müharibəmizin tək xanım Şəhidi, 2855 Şəhid qardaşın tək Şəhid bacısı Arəstə Baxışovadır. Arəstə xanım döyüşlərin ilk günündən irəli atılaraq, ən qaynar nöqtələrdə gözünü qırpmadan, qorxu bilmədən yaralı döyüşçülərimizin dadına çatır, şəhid və yaralılarımızı döyüş meydanından, güllə və mərmi atəşinin altından çıxarırdı...**

Heyiflər olsun, Arəstə bacımız zəfər günümüzü görə bilmədi. Oktyabrın 23-də Qubadlı uğrunda qızğın döyüşlərin getdiyi bir vaxtda, öz fədakar borcunu yerinə yetirərkən bu Vətən qızı düşmən gülləsinə tuş gəlibən Şəhidlik zirvəsinə ucaldı! Arəstə xanımın şəhadətindən beş ay 20 gün öncə 31 yaşı tamam olmuşdu. İki azyaşlı övladını - Zəhra və Mərdanı anası Məktubə xanıma əmanət edərək, cəbhəyə tələsdi. 1989-cu ildə Xaçmazın Qımılqışlaq kəndində dünyaya gəlmişdi. Çünki anaları bir evdən çıxıb da, bir elin qızı, bir xalqın qəhrəman övladı oldu.



Atası Kərim Baxışov da hərbçiydi. Baş leytenant Kərim Baxışov Fövqəladə Hallar Nazirliyində Mühafizə İdarəsinin rəisi vəzifəsində çalışmışdı. "Çernobil qəzası"nda ağır yaralanaraq sağlamlığını itirən atası Arəstənin 4 yaşı olanda atası vəfat etdi və Arəstə atasızlıq niskiliylə barışmalı oldu... Azərbaycan Dövlət Pedaqoji Kollecində "İngilis dili" ixtisası üzrə pedaqoji təhsil də almışdı.

18 yaşında hərbi-tibbi xidmətə keçdi. 14 illik hərbi xidməti dövründə müxtəlif medallara layiq görüldü...

Amma... Arəstə xanımın həyatı heç də asan, hamar keçməyib. Ailə həyatı bir yana, anası və iki övladı ilə birgə yaşadığı mənzilin şəraiti də ürəkaçan deyildi. Köhnə, şəraitsiz, kiçik bir evdə yaşayırdılar... İndi həmin həyət evində anası və onun iki övladı, qardaşı və həyat yoldaşı, onların 2 uşağı yaşayır...

Çavuş Arəstə Baxışova 44 günlük Zəfər savaşının yeganə xanım Şəhidi olaraq adını öz canı, qanı ilə tariximizə, qəlbimizə yazdı. Məkanın cənnət, ruhun şad olsun, ey Şəhid həkim bacımız! Qarabağ da, Arəstə Baxışova da Azərbaycandır!

**C.Albantürk**